# Şəhidliyə ehtiram

*Bu günlərdə C.Naxçıvanski adına Hərbi Liseyin kursantları həm Şəhidlər xiyabanını, həm də türk əsgəri şəhidliyi abidəsini ziyarət etdilər. Əvvəlcə şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad olundu. Sonra kursantlar türk şəhidliyi abidəsinin önünə qərənfillər qoydular.*



Kursantlar türk əsgərlərinin ölkəmizdəki qəhrəmanlığından söz açdılar. İlk həmsöhbətim olan kursant Şöhrət Quliyev dedi ki, 1918-ci ildə ermənilər ölkəmizin müxtəlif bölgələrində azərbaycanlılara qarşı soyqırımı həyata keçirirdilər. Qan su yerinə axırdı. Quba, Şamaxı, Bakı və başqa bölgələrdə gərgin vəziyyət yaranmışdı. Təpədən-dırnağadək silahlanmış ermənilər kəndlərə hücum edir, evləri yandırır, dinc insanları amansızlıqla qətlə yetirirdilər. Günlər keçdikcə qanlı hadisələrin miqyası genişlənirdi. Bax, belə gərgin bir vaxtda türk əsgərləri köməyə yetişib xalqımızı erməni vandallardan xilas etdilər. Təəssüflər olsun ki, döyüşlər zamanı türk əsgərləri də şəhid oldular. Bu abidə onların xatirəsinə hörmət əlaməti kimi ucaldılıb. Xiyabana gələndə həmişə əlimdə gül dəstəsi abidəni ziyarət edir, xatirələri qarşısında baş əyirəm.

- Əgər 1918-ci ildə türk əsgərləri köməyə gəlməsəydilər, ermənilərin başımıza gətirdikləri faciənin miqyası, yəqin ki, daha da böyük olacaqdı, - deyə kursant Murad Rəhimov söhbətimizə qoşuldu. - Dinc insanlara divan tutan erməni qüvvələri türk əsgərlərinin gücü qarşısında dayana bilməyib geri çəkildilər. Bu bölgələrdə yaşayan insanların ölüm təhlükəsi sovuşdu. Xalqımız xilaskarlarını heç vaxt unutmur, yaddan çıxarmır. Türk əsgələrinin şərəfinə ucaldılan bu möhtəşəm abidə xalqımızın ziyarətgahına çevrilib.

Daha sonra kursantlardan İdris Məmmədov, Cəlil Rüstəmov, Telman Bayramov və başqaları ilə də söhbət etdim. Onlar da türk əsgərlərinin 1918-ci ildə soyqırımı törədən erməni qüvvələrinə qarşı igidliklərindən söz açdılar.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**